# Azərbaycan Xalq Parlamenti

**Address:** **169 63 Solna, Sweden** **Phone: +4915205921770** **e-mail:** info@azxp.org
**Web:** www.azxp.org

**“Millət vəkili, İntizam Komissiyasının sədri Teymur Eminbəyli başda omaqla, bir qrup millət vəkilinin mandatdan imtina etmələrinin qeydə alınması barədə”**

## Azərbaycan Xalq Parlamenti Rəyasət Heyətinin

## QƏRARI

Nəzərə alaraq ki:

1. Parlamentin 29.11.2025-ci il tarixli iclasında, Səfərsoy Təranə Həsən qızı, Səfərsoy Rza Əli oğlu, Həsrətli Nüsrət Həsrət oğlu və Məmmədov Tofiq Şirzad oğlu mandatdan imtina etmələri barədə şifahi qaydada bəyanat verdilər,
2. Millət vəkili və İntizam Komissiyasının sədri Teymur Eminbəyli, bu qərarın 1-ci bəndində adları göstərilən şəxslər və mandatı Rəyasət Heyəti tərəfindən etibarsız elan edilən İran İslam Respublikasının vətəndaşı Hüseyn Pursüleyman də daxil olmaqla, 50 nəfər millət vəkilinin adından Rəyasət Heyətinə verdiyi 01.12.2025-ci il tarixli müraciətdə Avropa Konvensiyasının 11-ci maddəsində nəzərdə tutulan “başqaları ilə birləşmək azadlığı hüququ”ndan istifadə etmələrini bəyan etdi,
3. 03.12.2025-ci ildə Teymur Eminbəyli və onun rəhbərlik etdiyi, özlərini “Müqavimət hərəkatı”nın üzvləri kimi təqdim edən şəxslərin, eləcə də Xalq Parlamentinin Rəyasət Heyətinə məlum olmayan digər naməlum şəxslərin iştirakı ilə toplantı keçirərək Avropa Konvensiyasının 11-ci maddəsində nəzərdə tutulan hüquqlarını reallaşdırdılar və yeni birlik yaratdılar,
4. Tərkibi bütövlüklə, özlərini “müqavimətçi” adlandıran şəxslərdən ibarət olan Seçki Komissiyasının üzvləri Rəyasət Heyətinə tabesizlik göstərərək Reqlament və Nizamnamə tələblərini pozdular, Teymur Eminbəylinin başçılığı altında keçirilən 03.12.2025-ci il tarixli iclasda iştirak edərək

Avropa Konvensiyasının 11-ci maddəsində nəzərdə tutulan hüquqlarını reallaşdırdılar,

5. İntizam Komissiyasının 5 üzvündən üçü: Teymur Eminbəyli, Eldar Həmidov və Təranə Səfərsoy özlərinin sobatajçı hərəkətləri ilə İntizam Komissiyasının normal fəaliyyət göstərməsini qeyri-mümkün ediblər,

Yuxarıda qeyd edilənlərə, Reqlamentin 16.3.-cü, 24.2.3.-cü, 24.3.2.-ci, 24.3.6.-cı, Nizamnamənin 4.3.2.3.-cü, 4.4.1.-ci, 6.2.3.-cü, 6.2.10.-cu, 6.3.2.-ci, 6.3.6.-cı, 6.5.2.2.-ci, 6.7.2.-ci maddələrinə əsasən, **Rəyasət Heyəti**

## Qərara alır:

1. Adları aşağıda göstərilən şəxslərin 01.02.2025-ci il tarixli müraciətlərini və 03.12.2025-ci il tarixli iclasda yeni bir təşkilatda birləşmələri barədə qərarları Azərbaycan Xalq Parlamentinin mandatından imtina kimi qiymətləndirilsin və bu imtinanın qeydə alınması Seçki Komissiyasına tapşırılsın:

    1. Eminbəyli Teymur Nəbi oğlu,
    2. İskəndərli Oqtay İskəndər oğlu,
    3. Paşayeva Sədaqət Saday qızı,
    4. Cəfərova Arifə Arif qızı,
    5. Ələkbərov Aydın İsaq oğlu,
    6. Mehtiyev Aslan Nazim oğlu,
    7. Bədəlov Əli Mustafa oğlu,
    8. Xanlarov Cavanşir Məmməd oğlu,
    9. Qəmbər Rövşən Yunis oğlu,
    10. Xanlarova Rəbiyyə Əli qızı,
    11. Həmidov Eldar Soltanhəmid oğlu,
    12. Məmmədli Ağası Baba oğlu,
    13. Şərifov Fariz Məhəmmədismayıl oğlu,
    14. Camalov Emil Musa oğlu,
    15. Məmmədhüseynov Süleyman Qoca oğlu,
    16. Zülfüqarova Sevinc Əflan qızı,
    17. Budaqov İlqar Namaz oğlu,
    18. Atayev Murtuzəli Yusran oğlu,
    19. Hacıyeva Şəhla Malik qızı,

20. Bayramov Zübeyir Zakir oğlu,
21. Məsimzadə Tahirə Eyvaz qızı,
22. Ağayev Qalib Şəmsəddin oğlu,
23. Səfərsoy Təranə Həsən qızı,
24. Həsrətli Nüsrət Həsrət oğlu,
25. Səfərsoy Rza Əli oğlu,
26. Məmmədov Tofiq Şirzad oğlu

2. Adları bu qərarın 6-cı bəndində göstərilən şəxslər Parlamentin Millət vəkilləri siyahısından çıxarılsın və bu məqsədlə azxp.org saytında müəyyən redaktə işləri aparmaq sayt rəhbərliyinə tapşırılsın.

3. Seçki Komissiyası tam tərkibdə buraxılsın və Seçki Komissiyası yenidən formalaşdırılsın.

4. İntizam Komissiyasında boşalan 3 yerə Parlamentin 13.12.2025-ci il tarixli iclasında yeni üzvlər və boşalmış yerlərə yeni Komitə Sədrləri seçilsin.

5. Millət vəkili, RH-nin üzvü Abid Qafarova tapşırılsın ki, Parlamentdə qalan millət vəkillərini, gizli səsvermədə iştirak etmək üçün, yeni kodlarla təmin etsin.

6. Bu Qərarın icrasına ümumi nəzarət Rəyasət Heyətinin üzvü Ataxan Əbilova həvalə edilsin.

Xatirə Cəbrayılova

**Azərbaycan Xalq Parlamentinin Sədri**

05.12.2025